**TİPOLOGİYA 1. Vəsaitlərinin HÖP vasitəsilə nağdlaşdırılaraq leqallaşdırılması.**

Öhdəlik daşıyan şəxslər tərəfindən təqdim olunan şübhəli məlumatların təhlili nəticəsində hüquqi şəxslərin bank hesablarına daxil olan vəsaitlərin sonradan Hökumət Ödəniş Portalı (HÖP) vasitəsilə hüquqi şəxslər ilə biznes əlaqəsi olmayan 3-cü şəxslərin büdcə ödənişlərində istifadə edilməsi, bununla da vəsaitlərin mənimsənilməsi, cinayət yolu ilə əldə edilmiş əmlakın nağdlaşdırma yolu ilə leqallaşdırılması sxemi müəyyən edilmişdir.

Maliyyə Monitorinqi Xidmətinə daxil olan məlumatda "HŞ_1" şirkətinin hesabına müxtəlif təşkilatlardan fərqli təyinatlar ilə külli miqdarda vəsait daxil olduğu, sonradan isə bu vəsaitlərin hüquqi şəxsə məxsus biznes kart ilə HÖP vasitəsilə büdcə ödənişləri üçün istifadə edildiyi bildirilmişdir.

Xidmət tərəfindən aparılmış təhlillər nəticəsində digər banklardan "HŞ_1" şirkətinin hesabına vəsait köçürən şirkətlərin ("B" qrup şirkətlər – 10 şirkət) təhlili aparılmış, nəticə olaraq onların şel əlamətlərinə malik olduğu, hesablarına digər qrup şirkətlərdən ("A" qrup şirkətləri) vəsaitlərin daxil olduğu, işçi saylarının (1-2) qeyri-adekvat olduğu müəyyən edilmişdir. Araşdırma zamanı "B" qrup şirkətləri tərəfindən oxşar formada köçürmələrin "HŞ_2" şirkətinə də edildiyi və qeyd olunan vəsaitlərin şirkətin biznes kartı ilə HÖP vasitəsilə istifadəsi müəyyən edilmişdir. Bundan başqa, təhlil nəticəsində "A" qrup şirkətlərinin (15 şirkət) bəzilərinin dövlət satınalma müsabiqələrinin qalibi olduqları müəyyən edilmişdir.

"HŞ_1" və "HŞ_2" şirkətlərinin biznes kartları üzrə əməliyyatların təhlili nəticəsində müvafiq kartlardan icra edilən ödənişlərin şirkətlə əlaqəli olmayan 1 935 fiziki və 22 hüquqi şəxsin gömrük rüsumlarının ödənildiyi müəyyən edilmişdir.

"Nağdsız hesablaşmalar haqqında" Qanunun 3.4.7-ci maddəsinə əsasən dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi) yalnız nağdsız qaydada həyata keçirilməlidir. Müvafiq qanun tələbindən yayınmaq məqsədi ilə "A" və "B" qrup şirkətləri "HŞ_1" və "HŞ_2" şirkətləri vasitəsilə gömrük orqanı ərazisində büdcə ödənişləri etmək istəyən fiziki və hüquqi şəxslərdən nağd vəsait müqabilində onların büdcəyə edəcəyi ödənişlərin (müəyyən güzəştlə) şirkət hesabından ödəyərək nağdlaşdırmışdır.

**İştirakçılar:**

- Yerli kredit təşkilatları;
- Dövlət müəssisələri;
- Şel şirkətlər;
- Digər fiziki və hüquqi şəxslər.

**İstifadə olunmuş alətlər:**

- Bank köçürmələri;
- Vergi ödəyicisinin biznes kartları;
- HÖP ödəniş portalı.

**İstifadə olunmuş üsullar**

- Şel şirkətlər vasitəsilə köçürmələrin edilməsi ilə mənimsənilən büdcə vəsaitinin izinin itirilməsi;
- Kənar şəxslərdən nağd şəkildə vəsaitləri qəbul etməklə onların gömrük rüsumu ödənişlərinin şel şirkətlərin bank hesablarındakı vəsaitlər vasitəsilə həyata ödənilməsi.

**İndikatorlar**

- hüquqi şəxslərin hesablarına dövlət təşkilatlarından daxil olan vəsaitlərin təyinatı üzrə istifadə olunmaması;
- hüquqi şəxslərin hesabına köçürülən vəsaitlərin müqabilində malların satışı və ya xidmətin göstərilməsinə dair elektron qaimə fakturanın müəyyən edilməməsi;
- hüquqi şəxslər tərəfindən qısa müddət ərzində HÖP vasitəsilə çoxlu sayda fiziki və hüquqi şəxsin gömrük rüsumlarının ödənilməsi;
- şirkətlərin işçi sayının müvafiq fəaliyyətə qeyri-adekvat olması;
- əməliyyatlarda şel tipli şirkətlərdən istifadə olunması
- şel tipli şirkətlərin dövlət büdcəsinə iri məbləğdə vergi borclarının mövcud olması;
- şirkətlərin böyük əksəriyyətinin müqavilə tarixinə yaxın tarixdə təsis olunması;

# Hökumət Ödəniş Portalı vasitəsilə müxtəlif mənbələrdən daxil olmuş vəsaitlərin nağdlaşdırılması

# SXEMİ

